## Filologiya elmləri doktoru, professor Asif Rüstəmlinin qiymətli fikirləri

---

*Azərbaycan Cümhuriyyətinin bu dövlət atributuna saysız-hesabsız şeirlər, nəğmələr həsr olunsa da, üç boyalı, ay və səkkiz guşə ulduzlu milli bayrağın simvolika açımını ilk dəfə poeziyaya gətirən Cəfər Cabbarlıdır.*

***

*Cümhuriyyət dövrü "Azərbaycan" qəzeti milli mətbuatımızın eyni zamanda erməni saxtakarlığına, barbarlığına, mənəviyyatsızlığına qarşı davamlı, dönməz mübarizəsində uzaq vuran "artilleriya"sı idi.*

***

*Siyasi memuarın dəyərli nümunəsi Azərbaycan siyasi memuar janrının ilk və ən görkəmli nümayəndələri fikrimcə, ədəbi-fəlsəfi düşüncə tariximizdə mühüm rolu və yeri olan, ictimai, siyasi və dövlət xadimləri kimi tanınan, demokratik dünyagörüşlü, Qarabağ kökənli Ağaoğlular ailəsinə mənsubdur.*

***

*Bədii ədəbiyyat janr biçimindən və mövzu seçimindən asılı olmayaraq saf hisslər və müqəddəs duyğular ümmanıdır. Çağdaşlığın və poetikliyin ruhunu yeniləyən bəşəri dəyərlər və mənəvi meyarlar tarixi gerçəklik məcrasında bədii həqiqətlərin diriliyinin və duruluğunun donorudur.*

***

*Bədii sözün ülviyyəti, səmimiyyəti, lətafəti, isməti mənim fikrimcə, ədəbi növlərdən ən çox poeziyada özünü qabarıq büruzə verir. Poetik nümunələr polifonikliyi - musiqili təbiəti, yığcam biçimi, lakonikliyi, oynaqlığı, axıcılığı, çevikliyi, ovqatı kökləmək məziyyəti, kütləvilik brendi ilə seçilir.*

***

*Yaradıcılığa şeirlə başlayan şəxslərin bir qismi sonralar şair ola bilməsələr də, ədəbiyyatsevərlər arasında yüksək zövqə, geniş erudisiyaya malik mütəxəssis, düşüncə adamı kimi tanınırlar. İnsanların söz ehtiyatının zənginləşməsində, nitqin rəvanlığında, cilalanmasında, mənəvi dəyərlərin, milli tarixi zəfərlərin tanıdılmasında, təbliğində, dünyagörüşün və həyata baxışın formalaşmasında, vətənə, təbiətə, Tanrıya sevgi, məhəbbət hissinin ovxarlanmasında poeziyanın təsir imkanları, ecazkar qüdrəti danılmazdır..."*

*Prezident İlham Əliyev xalq qarşısında verdiyi bütün vədləri şərəflə, ləyaqətlə yerinə yetirdi, Heydər Əliyev ilində, son 20 il müddətində qarşıya qoyulan bütün mühüm vəzifələri icra etdi. Azərbaycanı dünyanın qüdrətli dövlətləri sırasına yüksəltdi. Son 20 ili iki yüz illik tariximizin qiymətli, bənzərsiz üzük qaşına bənzətmək olar...*

***

*Babalardan yadigar qalan kəlmələrimiz – işğaldan azad edilmiş torpaqlarımız qədər hər birimiz üçün əzizdir. Ululardan bizə gəlib çatan sərvətlərimizdən: torpaq - xalqımızın igidliyindən, qəhrəmanlığından, söz, kəlmə isə zəkasından, təfəkküründən miras qalıb.*